**Cəlil Quliyev**

**UOT:330.34; 330.35; JEL: O40.**

# İqtisadi inkişaf və ictimai rifah

***Xülasə***

*Məqalədə iqtisadi artımla insan inkişafının qarşılıqlı əlaqəsinin elmi-nəzəri mahiyyətinə münasibət bildirilir. Davamlı inkişaf və postneft illərində ölkənin sosial-iqtisadi göstəriciləri tədqiq edilir.*

***Açar sözlər:*** *iqtisadi artım, ictimai rifah, sosial-iqtisadi inkişaf*

## Giriş

Dünya ölkələrinin təcrübəsi göstəriri ki, davamlı inkişaf və postneft illərində əhalinin maddi rifah halını səciyyələndirən və real təsəvvür yaradan göstəricilərdə baş verən dəyişikliklərin qiymətləndirilməsi, əslində insanların həyat səviyyəsini və yaşayış keyfiyyətinin yaxşılaşdırılmasının əsas istiqamətlərinin müəyyən edilməsində və müvafiq sahələr üzrə dövlət proqramlarının işlənib hazırlanmasında müstəsna əhəmiyyət kəsb edir. Postneft illərində ölkə iqtisadiyyatının əsas göstəricilərindən biri olan ÜDM-un artmasında baş verən müvəqqəti gerilmə ilə bağlı insanların sosial vəziyyətini xarakterizə edən bəzi göstəricilərdə baş verən gerilmənin qarşılıqlı təhlili, davamlı inkişaf ilə postneft illərində əhalinin həyat səviyyəsində və yaşayış keyfiyyətində baş verən dəyişikliklərin müqaqyisəli öyrənilməsini daha aktual edir.

## İqtisadi artımla insan inkişafının qarşılıqlı əlaqəsinin elmi-nəzəri mahiyyəti

BMT-nin İnkişaf Proqramı 1990-cı ildə İnsan İnkişafı haqqında ilk məruzəsini "İnsanlar - həqiqi mənada xalqların sərvətidir" sözlərilə başlayaraq, inkişaf anlamına yeni yanaşma kompaniyasına tərəfdar olmuşdur. "İnkişafın əsas məqsədi insanların uzun müddət, sağlam və yaradıcı yaşamasına imkan verən əlverişli şəraitin yaradılması" deyimi ola bilsin ki, bu gün çoxları üçün məlum bir ifadə kimi səslənsin. Lakin qeyd etmək lazımdır ki, insan inkişafı haqqında məruzələrdə 20 ildən çoxdur ki, "inkişaf" anlamına mahiyyətinə görə insan naminə baxılır (1). Son 20 ildə insan inkişafını xarakterizə edən bir çox göstəricilərdə əhəmiyyətli tərəqqi olmuşdur. Bu gün insanların əksəriyyəti daha sağlam, daha uzun ömür yaşayır, daha yüksək təhsil səviyyəsinə, daha yaxşı əmtəəyə və xidmətə nail olmaq imkanına malikdir. Hətta əlverişsiz iqtisadi şəraitdə olan ölkələrdə insanların sağlamlığı və təhsili xeyli yaxşılaşmışdı. Lakin tərəqqi, təkcə sağlamlığın və təhsilin yaxşılaşmasına və gəlirlərin artmasına deyil, eləcə də liderlərin seçilməsinə, dövlət qərarlarının qəbul edilməsinə və bilik mübadiləsinə təsir etmək imkanlarının genişləndirilməsinə yönəlmişdir. Lakin qeyd etmək lazımdır ki, tərəqqinin elementlərinin hamısı heç də müsbət olmamışdı. Əhatə etdiyimiz illərdə istər ölkə daxilində regionlar arasında və istərsə də ölkələr arasında bərabərsizlik daha da artmış, istehsal və istehlak üzrə bir çox modellər fəaliyyətinə görə dayanaqsız olmuşdu. Tərəqqi eyni olmamış, Cənubi Afrika və Sovet İttifaqının keçmiş respublikaları kimi regionların əhalisi, xüsusilə səhiyyə sahəsində tənəzzül dövrünü yaşamışdılar.

Son ildə BMT İnkişaf Proqramı (1) özünün İnsan İnkişafı haqqında apardığı tədqiqatlarda edilən son dərəcə maraqlı nəticəyə-iqtisadi artımla səhiyyə və təhsil sahələrində vəziyyətin dəyişilməsi arasında "korrelyasiyanın olmaması" anlamına cəlb etmək istərdik. Bu nəticənin başa düşülməsi inkişaf sahəsində strategiyanı seçmək üçün son dərəcə vacibdir. Mövcud materialların təhlili göstərir ki, gəlirlərin orta illik artım sürəti, yüksək olsa da, təhsil və səhiyyə sahələrində tərəqqinin davamlı olduğu hallarda da bu göstəricilər arasındakı fərq çox olur. Bir çox inkişaf edən ölkələrdə inkişaf etmiş ölkələrlə müqayisədə səhiyyənin və

©Cəlil Quliyev i.f.d. AMEA İqtisadiyyat İnstitutu
© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

təhsilin inkişaf səviyyəsi yüksək olsa da gəlirlərin həcminə görə kasıb ölkələrlə varlı ölkələr arasındakı fərqi aradan qaldırmaq mümkün olmamışdı. Belə ki, 2010-2015-ci illərdə insan inkişafı səviyyəsinin aşağı olduğu 41 ölkədə İnsan İnkişafı İndeksinin orta illik artım sürəti (0,92 faiz), insan inkişafı səviyyəsinin ən yüksək olduğu 51 ölkənin orta illik artım sürətini (0,35 faiz) 0,57 faiz bəndi və ya 2,6 dəfə üstələsə də, 2015-ci ildə adambaşına ümumi mili gəlir (alıcılıq qabiliyyəti pariteti üzrə 2011-ci il ABŞ dolldrında) həcmi əksinə, inkişaf səviyyəsinin ən yüksək olduğu ölkələrdə aşağı olan ölkələrlə müqayisədə 36956 ABŞ dolları və ya 15 dəfə üstün olmaqla 2649 ABŞ dollarına qarşı 32605 ABŞ dolları olmuşdur (1). 2010-cu illə müqayisədə 2015-ci ildə Ümumi Milli gəlir insan inkişafının ən yüksək olduğu ölkələrə nisbətən insan inkişafının aşağı olduğu ölkələrdə daha sürətlə (25,7 faizə qarşı 46,7 faiz) artmasına baxmayaraq, insan inkişafının ən yüksək olduğu ölkələrlə insan inkişafının aşağı olduğu ölkələr arasındakı fərq həmin dövrdə 25 faiz çox olmuşdur. Eyni zamanda göstərmək lazımdır ki, doğulanda gözlənilən ömür müddəti 2010-cu illə müqayisədə 2015-ci ildə insan inkişafının ən yüksək olduğu ölkələrdə 80,3 ildən 79,1 ilə qədər və ya 0,9 il azaldığı halda, bu göstərici insan inkişafının aşa-ğı olduğu ölkələrdə 56,0 ildən 59,3 ilə qədər və ya 3,3 il artmışdır. Əslində iqtisadi artımla İnsan Potensialının İnkişafı heç də həmişə üst-üstə düşmür. Ötən 40 ildə iqtisadi artımla insan inkişafında baş verən dəyişikliklər arasındakı münasibətlərin öyrənilməsi göstərdi ki, bəzi ölkələrdə iqtisadi artım və insan inkişafının yaxşılaşması arasında müxtəlif variantlar olmasına baxmayaraq onlar bir-birinə müsbət təsir göstərirlər.

Lakin nəzərə almaq lazımdır ki, gəlir insan potensialının inkişaf indeksinin (İPİİ) tərkib hissələrindən biri olduğuna görə, onda baş verən dəyişikliklərin üçdə biri müsbət qarşılıqlı əlaqəni himayə edərək iqtisadi artımın hesabına baş verir. Gəlirlərin artımını insan inkişafı sahəsindəki gəlirlərlə əlaqəsi olmayan dəyişikliklərlə müqayisə etmək daha yaxşı olardı. Belə müqayisə insan potensialının inkişaf indeksi ilə oxşar, lakin yalnız İPİİ-in sağlamlıq və təhsil göstəricilərinin dəyişdirilməsini iqtisadi artımla müqayisə etmək məqsədi ilə hesablanan indeksin köməkliyi ilə edilir. Gəlirlə əlaqəsi olmayan İPİİ təhlili göstərir ki, onlar arasında korrelyasiya zəif olmuş və statistik baxımdan heç bir məna kəsb etməmişdir. Təsadüfi deyil ki, əvvəlki illərdə aparılan tədqiqatlarda olduğu kimi bu günkü tədqiqatlarda da qarşılıqlı əlaqələr üzrə əldə edilən nəticələr oxşar olmuşdur. Bu qarşılıqlı əlaqəni müntəzəm öyrənən ilk alimlərdən biri olan, demoqrafiya sahəsində tanınmış amerikalı mütəxəssis Somuyel Pirestonun 1975-ci ildə çap olunan məqaləsi elmdə yeni pillə kimi qəbul edildi. O, gəlirlərin dəyişilməsi ilə gözlənilən ömür uzunluğunun dəyişilməsi arasındakı 30 ölkə üzrə 30 il ərzində baş verən qarşılıqlı münasibətləri öyrənərək, onların heç bir statistik mahiyyətə malik olmadığını göstərmişdi. Lakin bununla yanaşı Pireston müəyyən konkret vaxtda gəlir səviyyəsi ilə gözlənilən ömür müddəti arasında qarşılıqlı əlaqə olduğunu da qeyd etmişdir. Bu sahədə istifadə edilməsi mümkün olan məlumatlar artdıqca, aparılan digər tədqiqatlarda da alimlər eyni nəticələrə gəlmişdilər. 1999-cu ildə Vilyam İsterli "İqtisadi artım dövründə həyat" ("Life during Growth") məqaləsində iqtisadi artımla yaşayış keyfiyyətini xarakterizə edən sağlamlıq, təhsil, siyasi azadlıq, münaqişələr və bərabərsizlik kimi göstəriciləri arasında zəif əlaqələr olduğunu göstərmişdir. Parisin iqtisadi məktəbinin direktoru Fransua Burqinon, eləcə də Afrikadan və Avropadan onunla həmrəy olan bir sıra həmkarları nəticəyə gəlmişdilər ki, «adambaşına ÜDM və əlaqəsi olmayan gəlirlər arasında korrelyasiya praktiki olaraq sıfıra bərabərdir». Dünya Bankının iqtisadçısı Çarlez Kenni 2009-cu ildə istər 25 il ərzində xeyli sayda seçilmiş ölkələr üzrə məlumatlarından, eləcə də sayca az olan ölkələr üzrə daha çox uzun müddəti əhatə edən məlumatlarından istifadə edərək gözlənilən orta ömür müddətinin artması ilə iqtisadi artım arasında qarşılıqlı münasibət olmadığını təsdiq etmişdir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Bu cür nəticələri, çoxlu sayda misallar gətirməklə daha geniş şərh etmək mümkündür. Son 30 ildə dünya ölkələri arasında iqtisadiyyatı daha sürətlə artan Çinlə Tunisin müqayisəsi maraqlı nəticələrin aşkar edilməsinə imkan verir. 1970-ci ildə gözləmək olardı ki, o dövrdə Tunisdə doğulan qız 55 il, Çində doğulan qız isə 63 il yaşayacaqdır. O vaxtdan Çində adambaşına ÜDM-in inanılmaz sürətlə ildə orta hesabla 8 faiz artığı halda, bu göstərici Tunisdə 3 faiz olmuşdur. Lakin Tunisdə doğulan qızların 2010-cu ildə gözlənilən ömür müddəti 76 il olmuşdur ki, bu da Çinlə müqayisədə bir il çoxdur. Əgər 1970-ci ildə Tunis uşaqlarının yalnız 53 faizi məktəb təhsili ilə əhatə olunmuşdursa, 2010-cu ilə bu göstərici 78 faiz, Çində isə 68 faiz olmuşdur (1). Diqqətinizi son 40 ildə iqtisadi inkişafı pisləmiş ölkələri xarakterizə edən digər bir misala cəlb etmək istərdik. Əgər doğrudan da təhsil və səhiyyə sahələrində əldə edilən tərəqqi iqtisadi artımdan asılıdırsa, onda belə çıxır ki, ÜDM azalan ölkələrdə bu sahələrdə tərəqqi olmamalıdır. Əslində belə olmamışdır. 1970-2010-cu illərdə iqtisadi artımın azaldığı ölkələrdə gözlənilən ömür müddəti orta hesabla 11 il, təhsil alanların ümumi payı 22 faiz bəndi və savadlılıq səviyyəsi 40 faiz bəndi artmışdı. Konkret olaraq İran, Toqq və Venessuela ölkələrinin timsalında göstərmək olar ki, bu ölkələrdə gəlir səviyyəsi 1970-ci illə müqayisədə aşağı düşsə də, doğulanda gözlənilən ömür uzunluğu orta hesabla 14 il, təhsil alanların xüsusi çəkisi isə orta hesabla 31 faiz artmışdır. Bu sahədə aparılan tədqiqatların nəticələri göstərir ki, gəlir (iqtisadi artım) sahəsindəki dəyişikliklərlə gəlirlə əlaqəsi olmayan insan inkişafı göstəricilərinə aid dəyişikliklər arasında zəif də olsa qarşılıqlı əlaqə olmuşdur. Çıxarılan bu nəticələr, gəlir səviyyəsi ilə sağlamlıq və təhsil səviyyələri arasında korrelyasiya asılılığı olması faktını heç də inkar etmir. Gəlirlərin artması ilə səhiyyədə və təhsildə baş verən dəyişikliklər arasında korrelyasiya kifayət qədər olmasa da, gəlirlərin milli səviyyəsi ilə səhiyyə və təhsilin milli səviyyələri arasında əhəmiyyətli korrelyasiya mövcuddur. Aparılan müayinə materiallarının təhlili göstərir ki, bu qanunauyğunluqları ayrı-ayrı adam və ev təsərrüfatı səviyyələrinə də aid etmək olar. Belə bir halda sual olunur, vaxt keçdikcə bu məlumatlarla baş verən dəyişikliklər arasında korrelyasiyanın olmamasını necə uzlaşdırmaq olar.

Birincisi, korrelyasiya müəyyən sferada səbəb-nəticə münasibətlərinin olmasını heç də nəzərdə tutmur. Hətta əlaqələndirici səbəblər: məsələn daha yüksək gəlirin yaşayış keyfiyyətinin yaxşılaşmasına və ya səhiyyə və təhsil sferalarında irəliləyişlə-rin cəmiyyətdə məhsuldar qüvvələrin formalaşmasına təsir etsə belə, onların özlərini hansı cəhətdən göstərməsi məlum deyildir.

İkincisi, dəyişikliklərdə korrelyasiyanın olmaması, konkret anda dəyişikliklər arasında dəqiq qarşılıqlı əlaqə olmasını şübhə atına alır. Müəyyən vaxtda gəlirlə insan inkişafı ölçülərinin əlaqəsi olmayan gəlirlər arasında artıma doğru irəliləyiş olduğunu qeyd edərək, bu qeyri müəyyənliyə aydınlıq gətirmək olar. Daha varlı ölkələrin sakinlərinin orta hesabla daha təhsilli və daha sağlam olduğu bir vaxtda, hər hansı bir gə-lir səviyyəsinə malik olan ölkələrdə insanlar təhsil səviyyəsinin yüksəldilməsi və sağlamlığın yaxşılaşdırılması hesabına iqtisadi sahədə tərəqqi olmasını hiss edirdilər. Varlı ölkələrlə müqayisədə daha kasıb ölkələrdə yaşayan insanların sağlamlıq və təhsili arasındakı fərq daha sürətlə aradan qalxır. Bu qeyri müəyyənliyin açılmasının aydınlaşdırılmasından birini, yaşayış keyfiyyətinin sağlamlığın və təhsilin yaxşılaş-ması nəticələrinə təsiri vaxt etibarı ilə uzun və daimi olmayan maneələrin olması təşkil edir. Korrelyasiyanın olmamasını, gəlirdə baş verən dəyişikliklərin insan in-kişafının digər göstəricilərinin yaxşılaşmasına təsir etməsi üçün kifayət qədər vaxtın keçməməsi ilə izah etmək olar. Lakin bunu uzun müddətli dövr üçün tətbiqini məqbul hesab etmək olmaz. BMT-nin İnkişaf Proqramı İnsan İnkişafı haqqında məruzələrində 135 ölkə üzrə 1970-2010-cu illərdə, seçmə yolu ilə gəlirin artması və ya azalması ilə səhiyyə və təhsil sahələrində baş verən dəyişikliklər arasındakı asıllığı öyrənərək belə nəticəyə gəlmişdilər ki,



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

az da olsa korrelyasiya mövcuddur. 40 il ərzində səhiyyə ilə gəlir arasında qarşılıqlı əlaqədə baş verən dəyişikliklərin təhlili göstərir ki, insan potensialının aşağı və orta səviyyədə inkişaf etdiyi ölkələrdə, çox da vəsait tələb etməyən tədbirlərin həyata keçirilməsi hesabına səhiyyədə daha yüksək göstəricilərə nail olmaq mümkündür. Lakin ölkələr daha yüksək inkişaf səviyyəsinə nail olduqca, sağlamlıq daha bahalı tibbi texnologiyaların tətbiqi hesabına baş verir ki, bu da gəlirlərin yenidən nəzərə alınması ilə baş verir. Deməli çıxarılan nəticələr inkişaf imkanlarında və proseslərində baş verən dəyişikliklər barəsindəki fərziyyələrlə üst-üstə düşür.

Çıxardığımız nəticələr, iqtisadi artımın baş verdiyi dəyişikliklərdə əsas amillərdən biri olmasını heç də inkar etmir. Gəlir insanların imkanlarının artmasını və azadlıqlarının genişləndirilməsini təmin edən zəruri amillərdən biri hesab olunur. Bu baxımdan da gəlirə, inkişaf sahəsində həyata keçirilməsi nəzərdə tutulan hər bir siyasətin vacib elementi kimi baxmaq lazımdır. Gəlir insanların zəruri yeməyə, mənzilə, geyimə və həyatda daha geniş imkanlara nail olması üçün, onların zəruri resurslar üzərindəki nəzarətini gücləndirir. Resurslar da, öz növbəsində, insanların maddi ehtiyac şəklində həddindən çox üzləşə biləcəyi çətinliklər olmadan yaşayış planlarını həyata keçirməsinə, onların əhəmiyyətli və faydalı fəaliyyətlə məşğul olmasına, sevimli ailə üzvləri və yaxınları ilə daha çox birgə olmasına şərait yaradır.

Alınan nəticələr, eləcə də gəlirlərin daha artmasının, kasıbların səhiyyə və təhsil xidmətlərindən bəhrələnməsi imkanlarının çoxalmasına şərait yaratması faktını inkar etmir. Cəmiyyətdə sosial-iqtisadi statusla səhiyyə arasında korrelyasiyanın əsasən varlı adamların səhiyyə xidmətlərindən istifadə etmə imkanlarının üstün artmasında ifadə edir. Çin Xalq respublikasının təcrübəsi göstərir ki, yüksək və ya artan bərabərsizlik özünü hətta gəlirlərin birgə artdığı şəraitdə də göstərir. Den Syapin 1980-cı ildə “inkişaf acı həqiqətdir” deməklə o maotsedun dövrünün ideologiyasına qarşı çıxış etməklə, diqqətin iqtisadi artımın əvəzinə ümumi bərabərliyin təmin edilməsi ideyasına yönəldilməsinə qarşı çıxış etdi. Çin dünyasının ən kasıb ölkələrindən biri olmuş və iqtisadiyyatın sürətlə artmasına ölkənin yoxsulluqdan çıxması və beynəlxalq aləmdə iqtisadi və siyasi qüdrətinin möhkəmləndirilməsi yolu kimi baxırdı. Çin 30 il keçdikdən sonra, ona şöhrət gətirən planı, böyük itkilər hesabına həyata keçirərək bu gün onun bəhrəsini görür.



Məqsədyönlü iqtisadi artıma istiqamətləndirilən inkişaf strategiyasını seçərək Çin keçən əsirin 70-ci illərinin sonunda iqtisadi islahatlarını həyata keçirməyə başladı. Dövlət iqtisadi artımın əsas hərəkətverici qüvvəsi oldu. Hakimiyyətin müxtəlif səviyyələrində hakim vəzifəli şəxslərin fəaliyyətlərinin nəticələrinin qiymətləndirilməsində regionun iqtisadi inkişaf səviyyəsinin vahid meyar kimi götürülməsi təklif olundu. Çin bazar iqtisadiyyatına keçidin ümumi qəbul edilmiş baxışlarının əksəriyyətini qəbul etmədi. Üstünlük siyasi deyil, məhz iqtisadi islahatların liberallaşma və ya özəlləşdirmə olmadan həyata keçirilməsinə verildi. Bir başa xarici investisiya və ixracın artması kimi geniş yayılmış fikirlər əsas hərəkətverici qüvvə kimi qəbul edilmədi, əksinə Çinin iqtisadi inkişafının əsas hissəsi kiçik şəhərlərdəki və kənd rayonlarındakı müəssisələrin, eləcə də yerli hakimiyyət orqanlarının mülkiyyətində olan və idarə edilən firmaların fəaliyyəti hesabına əldə edilmişdi.

Üç onillik ərzində iqtisadi artım fenomen sürətlə, orta hesabla ildə 8 faiz artmışdı, pul ifadəsində yoxsulluq göstəricisi 1981-2005-ci illərdə 80 faizdən çox azalmışdı. Lakin bu uğurlar insan inkişafının digər ölçülərində yaxşılaşma ilə müşahidə olunmadı. 1970-ci ildən başlayaraq, iqtisadi inkişafına görə birinci yer tutan Çin 135 ölkə arasında təhsil və səhiyyə sahələrində 79-cu yeri tutmuş, əhalinin təhsillə əhatə olunma əmsalının 1970-ci illə müqayisədə azaldığı on ölkədən biri olmuşdur. Lakin bu həqiqətlər insan inkişafının aşağı və orta səviyyədə olduğu ölkələrdə ümumi iqtisadi artımın əhalinin sağlamlıq və təhsil

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sahələrində vəziyyətlərinin yaxşılaşmasına təsir göstərməsi faktını şübhə altına alır, mövcud materialların təhlili göstərir ki, artımın yüksək göstəriciləri ətraf mühitin və gəlirlərin bölüşdürülməsinin pisləşməsinə uyğun olaraq dəyişə bilər ki, bu da aşağıdakı ağır fəsadlara gətirib çıxardar.

BMT-nin İnkişaf Proqramı "İnsan İnkişafı haqqında" ilk məruzələrindən başlayaraq yeni məlumatlardan və metodlardan istifadə edərək insan inkişafının iqtisadi artımla fərqləndiyini və insan inkişafında iqtisadi artım olmadığı hallarda da, əhəmiyyətli uğurlara nail olmaq mümkün olmasını dəfələrlə qeyd etmişdir. İnsan İnkişafı haqqında birinci məruzəsində diqqəti, gəlir səviyyəsinin eyni olduğu digər ölkələrlə müqayisədə insan inkişafı sahəsində daha yüksək uğurlara nail olan Kosta-Rika, Kuba və Şri-Lanka kimi ölkələrə yönəltmişdir. Bu uğurlar əslində, iqtisadi inkişafın insan inkişafının digər göstəricilərindəki tərəqqini müəyyən edən proseslərdən ayrı düşdüyünə görə mümkün olmuşdur.

**Davamlı inkişaf və postneft illərində ölkənin sosial-iqtisadi göstəriciləri**

Davamlı inkişaf və postneft illərində respublikamızda bəzi əsas sosial-iqtisadi göstəriciləri xarakterizə edən cədvələ nəzər salsaq görərirk ki, ÜDM 2011-2014-cü illərdə (dörd ildə) istər manatla və istərsə də dollarla orta illik artım 7 faizdən çox olsa da, 2015-2017-ci illərdə (üç ildə) manatla orta illik 2,8 faiz artım, dollarla isə 19,4 faiz orta illik azalma olmuşdu. ÜDM-dan fərqli olaraq 2011-2015-ci illərdə (beş ildə) sosial göstəricilər orta hesabla ildə az artsa da postneft illərində orta hesabla ildə, məsələn: orta ayliq nominal əmək haqqi 17,9 faiz, minimum əmək haqqı 28,2 faiz, minimum pensiya 19,1 faiz, ünvanlı dövlət sosial yardım 21,9 faiz azalmışdır (4). Yaşayış minimumu haqqında qanuna müvafiq olaraq göstərilir ki, əhalinin əsas sosial-demoqrafik qrupları üzrə müəyyən edilən yaşayış minimumu əmək haqqının və pensiyanın minimum məbləğinin əsasını təşkil edir. Lakin əmək qabiliyyətli əhali və pensiyaşılar üçün 2010-cu ildə yaşayış minimumu müvafiq olaraq 96 və 68 manat müəyyən edilsə də, əmək haqqının minimum məbləği 17,7 manat və ya 18,4 faiz bəndi az, minimum pensiya 10,3 manat və ya 15,1 faiz çox olmuşdur. Sonrakı illərdə isə müəyyən edilmiş əməkqabiliyyətli yaşda əhali üçün müəyyən edilmiş yaşayış minimumu əmək haqqının minimum məbləğindən 2015-ci ildə 35,0 manat və ya 33,4 faiz, 2017-ci ildə 48,5 manat və ya 41,8 faiz, pensiyaçılar üçün müəyyən edilmiş yaşauış minimumunu pensiyanın faizlə minimumu məçləğimdən həmin illərdə müvafiq olaraq 8 manat (və ya 8 faiz) və 20,2 manat (və ya 18,4 faiz) çox olmuşdur (4). Davamlı inkişaf və postneft illərində sosial-iqtisadi göstəricilərdə baş verən bu dəyişikliklərin fonunda həyat səviyyəsini səciyyələndirən ev təsərrüfatlarında adambaşına gəlirlərin və istehlak xərclərinin həcmində, quruluşunda və dina-mikasında baş verən dəyişikliklərin daha ətraflı və dərin təhlil edilib qiymətləndirilməsi şöbənin əməkdaşlarının qarşısında qoyulan əsas məqsəd olmuşdur.



**Davamlı inkişaf və postneft illərində ÜDM-ilə sosial sahələri xarakterizə edən əsas göstəricilərdə baş verən dəyişikliklərin müqayisəli təhlili**

| | 2010 | 2015 | 2010 ilə nisbətən 2015 ildə %-lə | 2011-2015 illərdə orta illik+artım - azalma | 2017 | 2015 ilə nisbətən 2017 ildə %-lə | 2016-2017 illərdə orta il-lik+artım - azalma |
|---|---|---|---|---|---|---|---|
| **Adambaşına ÜDM** | | | | | | | |
| **manatla** | 4753,0 | 6268,0 | 131,87 | +7,15 | 7205,0 | 114,95 | +2,82 |
| **dollarla** | 5921,0 | 7990,8 | 134,96 | +7,75 | 4186,3 | 52,39 | -19,4 |
| **Orta aylıq nominal əmək haqqı manatla** | 331,5 | 466,9 | 140,8 | +7,10 | 528,5 | 113,2 | +6,4 |
| **dollarla** | 413,0 | 455,0 | 110,2 | +1,95 | 307,1 | 67,49 | -17,85 |

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **Minimum əmək haqqı** | | | | | | | |
| **manatla** | 78,3 | 105,0 | 134,1 | +6,05 | 116,0 | 110,48 | +5,10 |
| **dollarla** | 97,6 | 130,8 | 130,8 | +6,04 | 67,4 | 51,53 | -28,20 |
| **Minimum pensiya** | | | | | | | |
| **manatla** | 78,3 | 100,0 | 127,7 | +5,00 | 110,0 | 110,0 | +4,9 |
| **dollarla** | 97,6 | 97,5 | 99,9 | -0,05 | 63,9 | 65,5 | -19,1 |
| **Ünvanlı dövlət sosial yardım** | | | | | | | |
| **manatla** | 24,1 | 35,5 | 147,3 | +8,05 | 36,4 | 102,5 | +1,25 |
| **dollarla** | 30,1 | 34,6 | 115,0 | +2,85 | 21,1 | 61,0 | 21,9 |
| **Yaşayış minimumu: ölkə üzrə** | | | | | | | |
| **manatla** | 87 | 131 | 150,57 | +8,53 | 155 | 118,32 | +8,80 |
| **dollarla** | 108,4 | 127,67 | 117,78 | +3,32 | 90,06 | 70,54 | -16,0 |
| **Əmək qabiliyyətli əhali üçün** | | | | | | | |
| **manatla** | 96,0 | 140 | 145,83 | +7,82 | 164,5 | 117,5 | +8,4 |
| **dollarla** | 119,61 | 136,44 | 114,07 | +2,66 | 95,58 | 70,05 | -126,30 |
| **Pensiyaçılar üçün** | | | | | | | |
| **manatla** | 68 | 108 | 158,82 | +9,70 | 130,2 | 120,56 | +9,80 |
| **dollarla** | 84,72 | 105,25 | 124,23 | +4,43 | 75,65 | 71,80 | -15,25 |
| **Uşaqlar üçün** | | | | | | | |
| **manatla** | 72 | 108 | 150,0 | +8,45 | 136,6 | 126,48 | +12,47 |
| **dollarla** | 89,71 | 105,25 | 117,32 | +3,25 | 79,37 | 75,41 | -13,15 |

(4).



**Nəticə**

Son illərdə insan inkişafını xarakterizə edən göstəricilərdə baş verən əhəmiyyətli tərəqqi və qazanılan uğurlar nəticə etibarı ilə insanların daha sağlam və doğulanda gözlənilən orta ömür müddətinin artmasına, daha yüksək təhsil səviyyəsinə və yaşayış keyfiyyətinə malik olmaq imkanlarının artmasına müsbət təsir göstərsə də, həyat səviyyəsinin digər elementlərinə heç də bir o qədər təsir göstərməmiş, əksinə istər ölkələr arasında, istərsə də ölkə daxilində regionlar arasında bərabərsizliyin daha da dərinləşməsinə səbəb olmuşdur. İnsan İnkişafı üzrə BMT-nin İnkişaf Proqramının və eləcə də bir çox alimlərin müxtəlif dövrlərdə apardıqları tədqiqatlarda iqtisadi artımla səhiyyə və təhsil sahələrində baş verən dəyişikliklər arasında korrelyasiya asılılığının olmaması anlamı ilə razılaşmaq olmaz. Çünki mövcud materialların təhlili göstərir ki, bir çox inkişaf edən ölkələrdə inkişaf etmiş ölkələrlə müqayisədə səhiyyənin və təhsilin inkişaf səviyyəsinin yüksək olmasına baxmayaraq, kasıb ölkələrlə varlı ölkələrin gəlirlərinin arasındakı fərqi aradan qaldırmaq nəinki mümkün olmamışdı, əksinə bu fərq daha da artmışdı. Davamlı inkişafla insanların imkan bərabərliyinin təmin edilməsi problemlərinə vəhdət halında baxılmasını daha məqsədəuyğun hesab edirik. İnsan inkişafına köməklik edilməsi, hər şeydən əvvəl, davamlı inkişaf problemlərinin yerli, milli və qlobal səviyyələrdə həll edilməsini zəruri edir və bizcə bunu elə etmək lazımdır ki, insanların ədalət, hüquq və imkan bərabərlikləri tam təmin edilmiş olsun.

**Ədəbiyyat**

1.BMT-nin inkişaf proqramı. https://www.az.undp.org/content/azerbaijan/az/home/operations/undp_un.html

2.“Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”. Bakı, 2016.

3.“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası. Bakı, 2012.

4. https://www.stat.gov.az

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

***Джалил Гулиев***

***Экономическое развитие и социальное благополучие***

***Резюме***

*В статье выражается отношение к научно-теоретической сущности взаимодействия экономического роста и развития человека. В годы устойчивого развития и постнефти исследуются социально-экономические показатели страны.*

***Ключевые слова:*** *экономический рост, общественное благосостояние, социально-экономическое развитие*

***Jalil Guliyev***

***Economic development and social welfare***

***Summary***

*The article describes the relationship between economic growth and the scientific and theoretical essence of human development. In the years of sustainable development and postneft, the country's socio-economic indicators are studied.*

***Keywords:*** *economic growth, social welfare, socio-economic development*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 13.09.2019.***
***Çapa qəbul olunub: 16.09.2019.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*